# Ulu öndərin böyük xilaskarlıq missiyası



**29-cu ildönümünü qeyd etdiyimiz Milli Qurtuluş Günü tariximizin şanlı, müasir dövlətçilik salnaməmizin ən şərəfli səhifəsidir. Çünki məhz həmin gün Azərbaycanın müstəqilliyinin davamlılığını, dövlətçiliyinin müqəddəratını həll edən tarixi an idi.**

Hər bir dövlətin müstəqillik əldə etməsi və inamlı inkişafını təmin edən strateji amillərdən biri liderlik fenomenidir. Tarixi-siyasi, coğrafi şəraitdən, siyasi sistemin xüsusiyyətindən asılı olmayaraq, liderlik fenomeni milli dövlətin formalaşmasında və inkişafında həlledici rola malikdir.

Tarixi şəxsiyyətlər əsrlərin və nəsillərin yaddaşında əbədi yaşayırlar. Zaman ötdükcə onların xalqı və vətəni üçün etdiklərinin, ölkəsinin inkişafındakı xidmətlərinin əhəmiyyəti daha çox nəzərə çarpır. Azərbaycanın 1970-ci illərdən başlayan inkişafı, uğurları və yüksəlişi ümummilli liderimiz, müdrik zəka sahibi Heydər Əliyevin adı ilə bağlıdır.

Ulu öndərimizin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövr quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olub. Ümummilli liderimizin 34 il ərzində xalq, vətən üçün etdiklərini bəzən adi insan təfəkkürünün əhatə dairəsinə sığışdırmaq olmur. Böyük öndərimiz tariximizə xilaskar kimi daxil olub və respublikamıza rəhbərlik etdiyi hər iki dövrdə bu missiyanı çox böyük uğurla yerinə yetirib. Təsadüfi deyil ki, ümummilli liderimiz azərbaycanlı olması ilə fəxr etdiyi kimi, hər bir azərbaycanlı da bu gün Heydər Əliyevin ən böyük sənət əsəri olan müstəqil, inkişaf etmiş Azərbaycanın vətəndaşları olmaqdan qürur duyur, böyük öndərə sayğı və məhəbbətini onun ideyaları ətrafında daha da sıx birləşməklə nümayiş etdirir.

1993-cü il iyunun 15-də ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinə sədr seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Azərbaycanın mürəkkəb kataklizmlərlə müşayiət edilən daxili siyasi böhrandan qurtulması məhz bundan sonra mümkün oldu. Belə ki, ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi əsasında atdığı praqmatik addımlar sayəsində ölkədə hökm sürən dağıdıcı proseslərin aradan qaldırılmasına nail olundu, ümummilli liderin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı səhifəsinə çevrildi. Beləliklə, ümummilli lider Heydər Əliyev Azərbaycanı vətəndaş müharibəsindən, qarşıdurmadan, tənəzzül və məhv olmaq təhlükəsindən xilas edərək dirçəliş yoluna çıxardı.

1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Belə bir gərgin və böhranlı vəziyyətdə xalq ümidini böyük oğlu Heydər Əliyevə bağlamışdı. Ona görə də hələ 1992-ci ilin oktyabrında bir qrup Azərbaycan ziyalısı ulu öndərə müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etmişdi. 4 iyun 1993-cü ildə Gəncədə baş verən hadisələr, vəziyyətin silahlı qarşıdurma səviyyəsinə çatdırılması isə onsuz da ölkədə mövcud olan mürəkkəb vəziyyəti bir qədər də ağırlaşdırmışdı. Azərbaycan vətəndaş müharibəsinin astanasında dayanmış, müstəqilliyini yenidən itirmək təhlükəsi ilə üzləşmişdi. Belə bir məqamda yalnız bir çıxış yolu var idi. Bu çıxış yolu görkəmli siyasi və dövlət xadimi, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri, Yeni Azərbaycan Partiyasının sədri Heydər Əliyevin Bakıya dəvət olunmasından ibarət idi. Azərbaycan dövlətçiliyinin gələcəyindən narahatçılıq keçirən ziyalılar ulu öndərə müraciət etdilər. Əlbəttə ki, sağlam düşüncəli insanlar, ziyalılar AXC-Müsavat hakimiyyətinin Azərbaycanı uçuruma apardığını görürdülər. Ona görə də onlar haqlı olaraq hesab edirdilər ki, bu vəziyyətdən xalqı yalnız Heydər Əliyev kimi lider xilas edə bilər. Bu müraciətləri nəzərə alaraq Azərbaycan xalqının böyük oğlu 1993-cü il iyunun 9-da Bakıya döndü. Bu dönüş xalqın istəyi, tarixin zərurəti idi. Bu qayıdış insanların qəlbinə bir inam və rahatlıq toxumu səpdi, ölkənin xilas olacağına inamı artırdı. Bakıya qayıdan Heydər Əliyev hadisələri araşdırmaq, baş verənlərlə yerindəcə tanış olmaq məqsədilə Gəncəyə yollandı. Gəncədə apardığı danışıqlar nəticəsində silahsız, qan axıdılmadan məsələ həllini tapdı. Bununla da Azərbaycanı fəlakətə sürükləyə biləcək vətəndaş müharibəsinin qarşısı alındı. Ardınca dahi lider digər təxirəsalınmaz tədbirlər həyata keçirdi.

Bütün bunları görən, dəyərləndirən xalqımız etimad göstərdi və Heydər Əliyev 1993-cü il iyunun 15-də Milli Məclisin sədri seçildi. Ulu öndərin Azərbaycan parlamentinin sədri seçildiyi gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Bu təqvim Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı Azərbaycan dövlətini, müstəqilliyini, xalqımızın qürurunu, tarixini, bu gününü özünə qaytardı. Bu baxımdan 15 İyun - Milli Qurtuluş Günü, sadəcə, təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. Vətənini, xalqını sevən, həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş, Azərbaycan xalqının ölüm-dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa, dayaq olan Heydər Əliyevdir. İyunun 15-dən sonra Azərbaycanda ulu öndərin xilaskarlıq missiyası uğurla reallaşmağa başladı. Beləliklə, xalqımız özünün əsl müstəqilliyinə və dövlətçiliyinə 1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra qovuşdu. Aradan keçən illər təkcə sözügedən qayıdışa bəslənən ümidlərin özünü doğrultması ilə yadda qalmadı, həm də o dövrdə Azərbaycanın bugünkü inkişafının etibarlı bünövrəsi qoyuldu. Heydər Əliyev tarixi qayıdışı ilə xilaskarlıq missiyasını uğurla yerinə yetirdi.

XX əsrdə ikinci dəfə müstəqilliyinə qovuşan demokratik Azərbaycan dövlətinin qurulması istiqamətindəki xidmətləri böyük idarəçilik təcrübəsinə malik olan ümummilli liderimizin əvəzolunmaz tarixi şəxsiyyət olduğunu təsdiq etdi.

Ümummilli liderimizin xalqın birliyi yolunda titanik fəaliyyəti hər bir soydaşımız üçün örnək olmalıdır. Biz Azərbaycanı sevməyi Heydər Əliyevdən öyrənməliyik. "Azərbaycan mənim ürəyimdir, nəfəsimdir" - deyən böyük öndərimiz millətimizin və dövlətimizin əbədiyaşarlığı üçün əvəzsiz bir strateji siyasi xətt, ideoloji baza miras qoydu. Heydər Əliyevin həyat və fəaliyyəti böyük bir məktəbdir və daim öyrənilməlidir. Şükürlər olsun ki, ulu Tanrı xalqımızın taleyinə çətin, əzablı günlər yazsa da, bu əzablara sinə gərə biləcək, bütün düyünləri açmağa qadir olan Heydər Əliyev dühası kimi böyük şəxsiyyət də qismət edib. Cəmiyyətə xidmət nümunəsi olan bu böyük şəxsiyyət həmişə xalqa arxalanır və deyirdi: "Xalq mənim dayağım, gücüm və inamımdır". Xalq yolunda canını fəda etmiş, bütün həyatı boyu Vətənini və millətini düşünmüş, onun əsgəri olmuş ümummilli liderimiz əbədiyaşarlıq qazanmışdır.

Vaxtilə Heydər Əliyevin müstəqil və ərazi bütövlüyünü tam görmək istədiyi Azərbaycan bu gün azaddır. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ötən il 44 günlük Vətən müharibəsində müzəffər Silahlı Qüvvələrimiz tərəfindən parlaq qələbə əldə edildi. Azərbaycan xalqının möhtəşəm tarixi qələbə qazanaraq öz ərazi bütövlüyünün və tarixi ədalətin bərpa edilməsinə müvəffəq olması isə çoxəsrlik dövlətçilik tariximizin zirvəsidir. Təbii ki, Ermənistanın işğalçı siyasəti ucbatından 30 ilə yaxın davam edən Dağlıq Qarabağ münaqişəsinin mürəkkəb beynəlxalq münasibətlər şəraitində həllinə nail olmaq heç də asan və sadə məsələ deyildi. Artıq azad edilmiş elə bir ərazi yoxdur ki, orada bu və ya digər formada abadlıq-quruculuq işəri həyata keçirilməsin. İşğaldan azad edilmiş ərazilərdə yolların, digər kommunikasiya xətlərinin salınması, Füzuli aeroportunun qısa müddətdə tikilib istifadəyə verilməsi, digər iki aeroportun tikintisinin davam etdirilməsi, elektrik yarımstansiyalarının tikintisi, yaşayış məntəqələrinin yenidən qurulması tezliklə həmin ərazilərdə həyatın canlanacağına böyük ümidlər yaradır. Bütün bu görülən quruculuq işləri ilə paralel olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə azad olunmuş ərazilərdə, xüsusilə, Azərbaycanın qədim yaşayış məskənlərindən olan Şuşa şəhərində müxtəlif səpgili beynəlxalq tədbirlər də həyata keçirilir. Həmin tədbirlərdə iştirak edən dünyaca məşhur insanlar Şuşanın əsrarəngiz təbiəti ilə yaxından tanış olur, bu qədim mədəniyyət mərkəzinin mədəni irsini, memarlıq incilərini əyani şəkildə görür. Eyni zamanda, digər ərazilərdə erməni faşizminin törətdiyi dağıntıların, barbarlığın da şahidi olurlar.

2022-ci il may ayının 27-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birlikdə Zəngilan rayonuna səfər etmişlər. Tikilib başa çatdırılmış, ilk "Ağıllı kənd" layihəsi əsasında inşa edilmiş və ilkin olaraq öz sakinlərini qəbul etməyə hazır olan Zəngilan rayonu, Ağalı kəndində olmuşlar. Kənddə sakinlərin tam rahat yaşaması üçün bütün şərait yaradılmışdır. Ölkə başçısı və Birinci vitse-prezident sakinlərlə də görüş keçirmişdir. Kənd sakinləri yaradılmış şəraitə, doğma yurdlarına qaytarıldıqlarına görə Azərbaycan Prezidentinə, Birinci vitse-prezidentə minnətdarlıqlarını ifadə etmişlər. Bəli, artıq Zəngilanın Ağalı kəndinin timsalında Böyük Qayıdışın cururlu addım səsləri yaxından eşidilməyə başlayıb.

Əzəli Azərbaycan torpaqlarının işğaldan azad edilməsi üçün cənab İlham Əliyev müdrik Prezident olaraq düzgün, uzaqgörən daxili və xarici siyasət aparmış, orduya rəhbərlik edən Ali Baş Komandan olaraq yüksək sərkərdəlik qabiliyyəti ilə qətiyyətli qərarlar vermişdir. Məhz cənab Prezidentin yorulmaz fəaliyyəti, onun rəhbərlik etdiyi ordumuzun qəhrəmanlığı sayəsində düşmən məğlub edildi. O, bütün dünyaya sübut etdi ki, məhz erməni kimi insanlıq xüsusiyyətlərindən uzaq bir düşmən tərəfindən uzun müddət işğal altında qalan torpaqlarımızın azad edilməsinin yeganə yolu müharibədir. 44 günlük Vətən müharibəsində qazanılmış qələbə Azərbaycan tarixinin ən parlaq səhifələri kimi milli yaddaşımızda əbədi olaraq qalacaqdır.

Ən yeni tariximizin böyük qəhrəmanlıq səhifəsi olan Vətən müharibəsi bir daha göstərdi ki, heç bir qüvvə Azərbaycan xalqı arxasında dayandığı Prezident İlham Əliyevin hadisə və proseslərə prinsipial və qətiyyətli yanaşma tərzinə, ardıcıl, müdrik və sistemli qərar qəbuletmə məharətinə və sarsılmaz dəmir iradəsinə təsir edə bilməz. Bu qələbəni qazanmaq üçün cənab Prezident uzun illər Azərbaycanın iqtisadi gücünü artırmış, dövlətçilik ənənələrini daha da möhkəmləndirmiş, milli ordumuzun maddi-texniki bazasını, onun ən müasir silahlarla təchizatını daim xüsusi diqqət mərkəzində saxlamışdır. Məhz cənab Prezidentin apardığı müdrik və uzaqgörən siyasətin nəticəsi olaraq Azərbaycan Respublikası sürətlə inkişaf edən nüfuzlu dövlətə, regional liderə çevrilmişdir.

Bu gün ümumxalq inamının, xalqın müdrikliyinin, ən həlledici anlarda doğru seçiminin, eyni zamanda Liderin xalq qarşısındakı vədinə sadiqliyinin, milli dövlətçilik dəyərlərinə bağlılığının təntənəsidir. Belə tarixlər bizim üçün dəyərlidir. Xalq öz dəyərləri ilə böyüyür və güclü olur. 15 İyun - Milli Qurtuluş Günündən başlayan tarix də bizi bütün dövrlərdə daim güclü edəcək.

**Nəsib MƏHƏMƏLİYEV,**
**Milli Məclisin deputatı.**